# Ən çox verilən suallar

1. **Layihələr üçün büdcə ilə bağlı hansı tələblər var?**

- BP-nin Sosial Sərmayələr heyətinin büdcə həddi ilə bağlı tələbləri yoxdur. Konsepsiya sənədlərində maliyyə təklifləri nəzərdə tutulan hədəflərə və təklif olunan layihənin məqsədinə çatmaq üçün iş həcminə uyğun olmalıdır. Hər bir büdcə bəndi və onun komponentləri mövcud bazar qiymətlərinə uyğun olmalıdır.

2. **Layihələr necə qiymətləndirilir?**

- BP-nin Sosial Sərmayələr heyətinə təqdim olunan konsepsiya sənədləri ərizə forması, strateji hədəflərə uyğunluq və meyarlar baxımından ilkin qiymətləndirmə prosesindən keçirilir. Təklif olunan layihə meyarların əksəriyyətinə cavab verirsə, biz təklifin bütün meyarlara 100% cavab verməsi məqsədilə tam layihə təklifinin hazırlanması prosesinə başlayırıq. Bütün meyarlara 100% cavab verən yenilənmiş layihə təklifləri təqdim edə bilməyən ərizəçi təşkilatların təklifi rədd ediləcək.

3. **Sosial Sərmayələr və Sponsorluq şurasının funksiyası nədən ibarətdir?**

- Şuranın heyət üzvləri müxtəlif sahələrdə, o cümlədən hüquq, iqtisadiyyat, brend və marketinq və s. sahələrində ixtisaslaşmış mütəxəssislərdir. Onlar hər bir təqdim olunan layihə barədə potensial riskləri və çətinlikləri təhlil edir və təkliflərin qəbul edilməsini və ya rədd edilməsini təklif edir.

4. **Konsepsiya sənədlərinə ilə bağlı təkliflərə hansı müddət ərzində cavab verilir?**

- Bu, təklif olunan layihələrin xarakterindən və həcmindən asılıdır. BP-nin Sosial Sərmayələr qrupu bütün təqdim olunmuş konsepsiya sənədlərinə onların təqdim olunduğu tarixdən etibarən bir ay ərzində cavab verməyə çalışır. Lakin, konsepsiya sənədi təsdiq edildiyi təqdirdə, layihə təkliflərinin işlənib hazırlanması prosesi bir aydan dörd ayadək vaxt tələb edə bilər. Ümumilikdə, müraciət edən təşkilatlar konsepsiya sənədlərinin təqdim olunmasından müqavilənin bağlanılması prosesinədək ən azı 3-4 ay vaxt tələb olunacağını nəzərə almalıdır.

5. **Siz adətən hansı növ layihələri həyata keçirirsiniz?**

- Biz nəticəyə yönəlmiş layihələri həyata keçiririk. Biz insanlara səriştələr və biliklər qazandırmaqla ömürlük gəlir mənbələri təmin etməyə və beləliklə insanların həyatını dayanıqlı şəkildə dəyişdirməyə çalışırıq. Buna görə də, həyata keçirdiyimiz hər bir layihədə təlim-təhsil potensialının və sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi elementi olmalıdır. Bundan əlavə, şəffaflıq və iqtisadi səmərəlilik layihələrimizin mühüm prinsipləridir – biz xərclədiyimiz hər bir vəsaitin cəmiyyətə qazandırdığı dəyəri nəzərə alırıq.